# Dövlət qurumlarının yeni idarəetməyə verilməsi onların iqtisadi gücünü artıracaq

Sərəncama əsasən, adları çəkilən qapalı səhmdar cəmiyyətləri və Bakı Nəqliyyat Agentliyinin tabeliyindəki “BakuBus” Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilib.

İdarəetmədə bu yeniləşmə, ilk növbədə, daha sağlam prinsiplərə söykənən idarəçiliyə əsaslanmaqla iqtisadi inkişafın sürətləndirilməsi və dövlət müəssisələrinin profisitinin artırılması, onların büdcədən asılılıqlarının azaldılması məqsədi daşıyır. Prezident İlham Əliyevin 2020-ci il 7 avqust tarixli sərəncamına əsasən yaradılan Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətində də bu amil xüsusi diqqət çəkir. Başqa sözlə, Azərbaycan İnvestisiya Holdinqi idarəetməsinə verilən qurumların maliyyə sağlamlığını və dayanıqlılığını yaxşılaşdırmaq, maliyyə resurslarının, habelə xarici borcların cəlb olunmasını səmərəli meyarlar əsasında nəzarətdə saxlamaq üçün tədbirlər reallaşdırır.

Dövlətimizin başçısı tərəfindən aparılan islahatların məntiqi davamı olan Azərbaycan İnvestisiya Holdinqinin yaradılması respublikada yerli və xarici investisiyaların sağlam təməllər üzərində reallaşdırılmasına da öz müsbət təsirini göstərəcək. Çünki hazırda respublikamıza investisiya yatırmaqda maraqlı olan iri şirkətlər var. Pandemiya ilə bağlı layihələrin sürəti son bir ildə bir qədər zəifləsə də, postpandemiya dövründə onların Azərbaycan iqtisadiyyatının inkişafında rolu, şübhəsiz ki, güclənəcək. Ən əsası isə xarici investisiyaların fəal şəkildə iqtisadiyyata cəlb edilməsi sürətlənəcək.



**Prezident İlham Əliyev “Azərbaycan Hava Yolları”, “Azərbaycan Dəmir Yolları”, “Bakı Metropoliteni” qapalı səhmdar cəmiyyətlərinin və Bakı Nəqliyyat Agentliyinin tabeliyindəki “BakuBus” Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi haqqında” 12 fevral 2021-ci il tarixli sərəncam imzalayıb.**

Ümumiyyətlə, Azərbaycan İnvestisiya Holdinqinin yaradılması yuxarıda vurğulanan məsələlərin həlli ilə yanaşı, həm də dövlət müəssisələri vasitəsilə yatırılan investisiyaların səmərəsinin artırılmasına, investisiyalardan əldə olunan əlavə dəyərin iqtisadiyyata yönəldilməsinə böyük töhfə verəcək.

Hazırda respublikamızda davamlı struktur və institusional islahatlar həyata keçirilir və bu islahatlar bütün sektorlarda üfüqi və şaquli vektor üzrə aparılır. Yəni, islahatlar yeni tipli idarəetmədən, optimallaşdırmanı həyata keçirmək üçün yeni mobil qurumların yaradılmasından başlamış cəmiyyətin bütün sosial-istisadi sahələri üzrə hər gün bir qədər daha əhatəli və daha köklü forma alır. Azərbaycan İnvestisiya Holdinqinin yaradılması da bu baxımdan struktur və institusional islahatlara dəstək verən strateji bir qərardır və milli iqtisadiyyatımızı neft asılılığından tamamilə qurtarağına real zəmin yaradır.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdik. Dövlət şirkətlərinin idarə olunması hazırda bir sıra ciddi problemlərlə müşahidə edilir. Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı deyib: “Dövlət şirkətlərində itkilər kifayət qədər böyükdür. İndi, baxın, bizim qaz itkiləri, düzdür, son vaxtlar azalıb, ancaq yenə də dözülməz həddədir. Bizim su itkiləri. Su məsələlərinin həlli ilə bağlı xüsusi müşavirə keçirmişdim, Tədbirlər Planı qəbul edilib və artıq icra olunur. Amma itkilər 40-50 faiz səviyyəsindədir. Elektrik xətlərindəki itkilər də, əlbəttə ki, bizi narahat edir. Baxmayaraq ki, son vaxtlar bu sahəyə böyük vəsait qoyulub, müasir infrastruktur yaradılıb, lakin yenə də itkilər var. Amma özəl sektorda əgər itki varsa, bu özəl sektorun subyekti müflisləşir, biznesini bağlayır və heç kim bunun köməyinə gəlmir. Amma dövlət şirkətləri öyrəşiblər ki, onların bütün qüsurları, bütün itkiləri dövlət tərəfindən bağlanacaq. Hətta ölkəmizdə qazlaşdırma dövlət büdcəsi hesabına aparılır. Halbuki bu, Dövlət Neft Şirkətinin bilavasitə vəzifəsidir…”.

Azərbaycan İnvestisiya Holdinqinin yaradılmasında da məqsəd məhz yuxarıda vurğulanan nöqsanların aradan qaldırılması, iqtisadiyyatımızda böyük bir hissə təşkil edən dövlət şirkətlərinin idarə olunmasında səmərəliyin artırılmasıdır.

Xatırladaq ki, İnvestisiya Holdinqinin nizamnaməsində də dövlət müəssisələrində müasir şərtlərə uyğun şəffaf idarəetmə sisteminin qurulması qarşıya mühüm vəzifə kimi qoyulub. Başqa sözlə, bu, həm də Azərbaycanda bir çox sahələrdə liberallaşma prosesinin sürətlənməsi deməkdir. Holdinqin təsis olunması, idarəetmədə effektivliyin artırılması, qeyri-neft sahələrinin effektiv idarə edilməsi həmin sahələrin inkişafına təkan verəcək.

Burada bir məsələni də qeyd etməyi zəruri bilirəm. Belə ki, hazırda qeyri-neft sektorunda dövlət müəssisələrinin payı yüksəkdir, onların məşğulluqdakı payı isə təqribən 25 faizdir. Təxminən on beş ən iri dövlət müəssisəsinin aktivinin həcmi ölkənin ÜDM ilə müqayisə edilə bilən səviyyədədir. Dövlət isə səhmdar olaraq həmin müəssisələrin müasirləşməsi, texnoloji yenilənməsi, kapitallaşması və maliyyə dayanıqlığını təmin edərək onların keyfiyyət və səmərəlilik baxımından yeni inkişaf səviyyəsinə keçidi üçün əlverişli zəmin yaradır. Lakin onların daha səmərəli, daha yüksək səviyyədə idarə olunması zərurətinə bu gün daha çox ehtiyac duyulur. Bütün bunlara görə də Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə son vaxtlar bir sıra dövlət qurumlarının Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi mühüm önəm daşıyan bir addımdır.

***Vəkil HÜSEYNOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru***

Xalq qəzeti 2021.- 16 fevral.- S.8.